UOT 94

SEVİL BƏHRƏMOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Tarix və coğrafiya fakültəsinin baş müəllimi,
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4886-0101
sevil_behremova@mail.ru

ÇAR RUSİYASININ KÖÇÜRMƏ SİYASƏTİNDƏ ERMƏNİ, BİDƏTÇİ VƏ TƏRİQƏTÇİLƏRİN CƏNUBİ QAFQAZA YERLƏŞDİRİLMƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/27-32

Qafqaz müxtəlif etnik xəritəsi və zəngin tarixi keçmişə malik çox müxtəlif mədəniyyətlərin bolluğu ilə seçilir. Burada müxtəlif etnik mədəniyyətlər əsrlər boyu qarşılıqlı əlaqədə olub, Qafqazın xüsusi mədəni fenomenini formalaşdırıb. Əsrlər boyu zəngin təbii sərvətləri, tarixi-mədəni irsi, etnoqrafik müxtəlifliyi ilə Qafqaz avropalıların diqqətini cəlb etmişdir. Bölgədə sosial-iqtisadi inkişaf, etnomədəni özünəməxsusluğun, etnomədəni dəyərlərin və etnoqrafik xüsusiyyətlərin qorunub saxlanması üçün çox əlverişli şərait yaranmış, bütün XIX əsr və XX əsrin əvvəllərində burada Avropa etnik icmaları formalaşmışdır. Rus çarizminin köçürmə siyasəti və Qafqazda etnodemoqrafik dəyişikliklərə səbəb olmaqla XX əsrin əvvəllərində bu özünü dah aydın şəkildə göstərməyə başladı. Qafqazın Rusiya imperiyası tərəfindən zəbt edilməsi yeni etnososial proseslərin və regionun etnodemoqrafik strukturunda dəyişikliklərin başlanğıcını qoydu.

XIX və XX əsrin əvvəllərində Qafqazda miqrasiya prosesləri, istər Rusiya imperiyasının hüdudlarından kənarda, istərsə də onun o vaxtkı ucqarlarından və daxili quberniyalarından əhalinin kütləvi köçləri baş verdi. XIX əsrdə Qafqazda miqrasiya prosesləri çarizmin köçürmə siyasəti çərçivəsində məqsədyönlü xarakter daşıyır və təkcə könüllü deyil, həm də zorla baş verirdi. Məqalədə Rusiyanın Cənubi qafqaza əhalinin köçürmə siyasəti öz əksini tapmış, müxtəlif mənbələr təhlil edilmişdir.

Açar sözlər: Cənubi Qafqaz, bidətçi və təriqətçilər, zorakı köçürmə, müstəmləkəçilik siyasəti, etnomədəni dəyərlər, etnoqrafik xüsusiyyətlər, etnik icmalar, əhalinin kütləvi köçü.

Giriş. Qafqazın bütün regionlarının, o cümlədən böyük yaşayış məntəqələri olan şəhərlərimizin əhalisinin tarixinin müxtəlif istiqamətlərinin öyrənilməsi hazırda mühüm elmi və siyasi aktuallıq kəsb edir. SSRİ-nin dağılması ilə siyasi-ideoloji qadagaların aradan götürüldüyü bir şəraitdə sovet imperiyası dövründə araşdırılmış bir çox problem və mövzuların yenidən işlənilməsi zərurəti ortaya çıxmışdır. Problemin ciddiliyini hamıdan əvvəl görən Ümummilli lider Heydər Əliyev hələ ötən əsrin 90-cı illərinin sonlarında Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı alimləri ilə görüşdə XIX-XX əsrlər Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsini tarix elminin qarşısında prioritet vəzifələrdən biri kimi qoymuşdur. Ümummilli liderin tövsiyələrinə əməl edən tarixçilərimiz son illər ərzində bu vəzifənin yerinə yetirilməsi istiqamətində ciddi işlər görməkdədirlər. Hesab edirik ki, həmin vəzifənin yerinə yetirilməsi baxımından XIX-XX əsrin əvvəllərində Bakı şəhərində yaşamış əhalinin etnik və ictimai tərkibinin öyrənilməsi mühüm aktuallıq kəsb edir. Məlumdur ki, Bakı şəhəri XIX əsrin sonu – XX əsrin əvvəllərində yalnız Azərbaycanın deyil, bütün Qafqazın ən böyük sənaye mərkəzinə çevrilmişdi (5, s.154). Bu isə şəhərdə əhalinin sayının sürətlə artması ilə yanaşı, onun etnik və sosial tərkibində ciddi dəyişikliklərlə müşayiət olunurdu. Çar hökumətinin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsində gedən bu dəyişikliklər heç də şəhərin yerli sakinləri olan azərbaycanlıların xeyrinə deyildi. Bu isə Bakı şəhərinin mənsubiyyəti məsələsi ətrafında gələcəkdə əsassız iddiaların meydana çıxmasına səbəb olmuşdu. Bu iddiaların heç bir tarixi əsasa malik olmadığını ifşa etmək baxımından seçilmiş mövzu xüsusi aktuallığa malikdir.

Əsas hissə. XIX-XX əsrin əvvəllərində Azərbaycanın Rusiya imperiyasının tərkibində oldugu dövrdə aparılan müstəmləkəçilik siyasəti yalnız əhalinin etnik tərkibinin dəyişməsində deyil, həm də yerli azərbaycanlı əhalinin doğma şəhərində "ikinci dərəcəli vətəndaşlara" çevrilməsində də özünü

göstərirdi. Məhz bu siyasət nəticəsində yerli əhali şəhər idarəçiliyində hər hansı mövqe tutmaq imkanından məhrum edilmiş, onun tibb və təhsil müəssisələrinin xidmətindən istifadə imkanları əsaslı şəkildə məhdudlaşdırılmışdı. Halbuki, Bakıda, eləcə də Azərbaycanın digər şəhərlərində ancaq XIX-XX əsrin əvvəllərində yerləşdirilmiş xristian əhali, ilk növbədə ermənilər və ruslar böyük imtiyazlara malik idilər. Bütün bu məsələləri özündə əks etdirən mənbələrin araşdırılıb üzə çıxarılması öyrənilən dövrdə Azərbaycanda gedən demoqrafik proseslərin obyektiv mənzərəsini yaratmaq baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Bu, həm də çar hökumətinin XIX-XX əsrin əvvəllərində yaratdığı durumdan istifadə edərək Bakını Azərbaycandan ayırmağa cəhd etmək istəyinə tutarlı bir cavabdır. Azərbaycana köçürülməsinin tarixi-demoqrafik cəhətdən öyrənilməsi ölkəmizin tarixinin coğrafi, mədəni və siyasi tarixinin araşdırılması baxımdan da çox böyük əhəmiyyət daşıyır. Azərbaycanlıların tarixi proseslərdə tutduğu yeri müəyyənləşdirmək baxımından da bu mövzunun tədqiqi aktualdır.

Rəşid Bəy İsmayılovun Bakıda 1923-cü ildə nəşr etdirdiyi "Azərbaycan tarixi" və Cahangir Zeynaloğlunun Ankarada 1924-cü ildə çap etdirdiyi "Müxtəsər Azərbaycan tarixi" kitabları ilə bağlı da eyni fikirləri əsas gətirmək olar. Lakin onu da qeyd etmək lazımdır ki, Rəşid Bəyin adı çəkilən kitabı uzun illər arxiv divarları arxasında gizli saxlanılmışdır. Bakıda hər iki kitabın yenidən nəşr edilməsi təqdirəlayiqdir (8, s.380-390).

Çar Rusiyasının həyata keçirdiyi amansız işğalçılıq, zorakı köçürmə və müstəmləkəçilik siyasəti 80-cı illərin sonu 90-cı illərin əvvələrində çap olunmuş məqalə və kitablarda ifşa olunaraq kəskin şəkildə tənqid olunmuş, çarizmin bu işdə fəal yardımçıları olan erməni siyasətçilərinin fəaliyyəti geniş şərh edilmişdir (11, s.22-35).

1992-1995-ci illərdə nəşr olunmuş Azərbaycan tarixi kitablarında Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına, Rusiya tərəfindən bura köçürülmələrə, komendat üsul-idarəsinə və xalqın müstəmləkə zülmünə qarşı mübarizəsinə xüsusi yer ayrılmışdır. M.İsmayılovun həmin kitablarda işğaldan və köçürmələrdən bəhs edərkən gəldiyi qənaətə görə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ən mürtəce hadisə olmuşdur (3, s.23).

1867-ci ilin dekabrında Yelizavetopol (Gəncə) quberniyasının yaradılması ilə Şuşa və Nuxa qəzaları Bakı quberniyasının tərkibindən çıxarılaraq Yelizavetopol quberniyasına verildi. Qəzaların ərazilərinin kiçilməsi ilə əlaqədar həmin fərman əsasında Bakı quberniyasının ərazisində Cavad və Göyçay qəzaları yaradıldı. Həmin vaxtdan Bakı quberniyası 6 qəzadan (Bakı, Şamaxı, Kubinski, Lənkəran, Cavad və Göyçay) və Xəzər dənizindəki bir sıra adalardan ibarət idi. Bu bölgü ADR dövründə də qaldı (1, s.124).

XIX əsrin ortalarında "Şərq məsələsi" adlanan məsələ yenidən kəskinləşdi. Əslində söhbət Osmanlı dövlətini parçalamaq, onun ərazisində yeni dövlətlər yaratmaq, torpaqlarına yiyələnmək, isti dənizlərə çıxmaq, fayda və nifrət məsələsi idi. Əgər Avropa dövlətləri üçün əsas meyar bəşəriyyət olsaydı, onda çarizmin boyunduruğu altında əzilən müsəlman xalqları, avtokratiyanın hakimiyyətinə qarşı çıxan xristianları müdafiə etməli idilər. Lakin böyük dövlətlər bu istiqamətdə heç bir iş görmədilər. Onlar öz niyyətlərini həyata keçirmək üçün yenidən Osmanlı İmperiyası ərazisində yaşayan xristian xalqlardan istifadə etməyə başladılar. Çarizm qərbdə Balkanları, şərqdə isə Şimali Qafqazı öz nəzarəti altına almağa çalışır və bu səbəbdən də xristian amilini ön plana çıxarırdı. Bu iddialar yenidən Rus və Osmanlı imperiyaları arasında 1853-1856-cı illərdə Krım müharibəsinə səbəb oldu və türklər qalib gəldi. Avropa dövlətləri Rusiyanın qalib gəlməsini istəmirdi. Osmanlı ərazisində yaşayan ermənilər çarizmə kömək edirdilər (12, s.48).

Müharibədən sonra ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi davam etdi. Bu dəfə onları yerləşdirərkən İrəvan quberniyasına üstünlük verildi. İrəvan quberniyasının hərbi qubernatorunun 5 noyabr 1850-ci il tarixli hesabatında qeyd olunurdu ki, quberniyada cəmi 217 min 234 nəfər yaşayır. Müstəmləkəçilik siyasəti azərbaycanlıların kəskin etirazına səbəb olub. Yerli əhali çarizmin müstəmləkəçilik siyasətinə öz münasibətini aktiv və passiv formada bildirirdi. Üsyanlar, qaçaq hərəkatı və s. müstəmləkəçiliyə qarşı müqavimətin fəal formasına çevrildi (16).

Əhali kütləvi şəkildə Qarabağ, İrəvan və Bakı xanlıqlarından köçürdü. Osmanlı hökuməti tərəfindən Rusiyadan gələn müsəlmanların Zeytun bölgəsinə yerləşdirilməsi ermənilərı hiddətləndirdi. Bu ərazi həm türk ermənilərı, həm də Cənubi Qafqaz ermənilərı arasında təbliğat mərkəzlərindən birinə

çevrildi. Nəticədə Hovaqim adlı bəlli bir erməni ermənilər Osmanlı dövlətinə qarşı üsyana təhrik etməyə çalışır. 1862-ci ildə üsyan oldu (15, s.315).

Osmanlı hökuməti ordu hissələri göndərərək bu üsyanı yatırtdı. Üsyan liderlərindən biri olan Levon III Napoleonla görüşmək və onu Osmanlı hökumətinə silahlı qüvvələrini geri çəkməyə təsir göstərməyə inandırmaq üçün İstanbuldan Parisə getdi. Üsyan yatırıldıqdan sonra Osmanlı hökuməti qoşunlarını geri çəkdi. Bu hadisəni öz qələbəsi kimi qeyd edən ermənilər Rusiyada və Osmanlı dövlətində geniş təbliğat aparmağa başladılar. Ermənilər qoşunların çıxarılmasını hökumətin zəifliyi kimi qiymətləndirirdilər. Əslində Osmanlı hökuməti ermənilərə güvənli münasibətinə görə bu ərazilərə çox az nəzarət edirdi və bəzən sadəcə olaraq yerlərdəki vəziyyətlə bağlı kifayət qədər məlumatlı olmurdu. Ermənilərin Osmanlı hökumətinə qarşı üsyanları üçün zəmin yetişdiyi bir şəraitdə Şimali Qafqazdan müsəlmanların köçürülməsi və Osmanlı dövləti ərazilərində yerləşdirilməsi daha da artdı. 1865-ci ildə Kubandan 400 nəfər Osmanlı dövləti ərazisinə köçdü. Bu ərazidə əhalinin demoqrafik vəziyyəti dəyişdi. 60-70-ci illərdə Şimali Qafqazdan 500 minə yaxın qaçqın bu ərazilərə köçürüldü (7, s.74).

XIX əsrin ikinci yarısında ermənilərin Şimali Azərbaycana köçü kəskin şəkildə artdı. Buna 1853-1856-cı illər Krım müharibəsi daha sonra isə 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi təkan verdi. 1873-cü ilin məlumatlarına görə 221.191 erməni; 1886-cı ildə onların sayı burada daha çox idi - 375,700; 1897-ci ildə artıq 439 926 erməni var idi. 20-ci əsrin əvvəllərində vilayətdə ermənilərin sayı artmaqda davam edirdi. 1917-ci ildə bu göstərici 669.871 nəfər idi. Bu məlumatların 1897-ci ilin göstəriciləri ilə müqayisəsi onu göstərir ki son 20 ildə burada ermənilərin sayı 229 min 945 nəfər və ya 34,3% artmışdır(6, s. 9).

1828-1829-cu illərdə keçmiş İrəvan xanlığında 22500 erməni yaşayırdısa, sonrakı illərdə iki il ərzində onların sayı demək olar ki, üç dəfə artaraq 64.450.195-ə çatmışdır. Qacar və Osmanlı imperiyalarından ermənilər kütləvi şəkildə köçürüldükdən sonra onların sayı kəskin artmışdır. Belə ki, Gürcüstan ərazisindəki Borçalı distansiyasında 1050 ailə, Pəmbək distansiyasında 67 ailə, ümumilikdə 5580-dən çox insan məskunlaşıb. Nəticədə Şimali Azərbaycanda, xüsusən də Qarabağ quberniyasında demoqrafik dəyişikliklər baş verdi. 1823-cü ildə 4366 və ya təxminən 22 min erməni ailəsi var idi. Bəzi erməni ailələrinin Qacar və Osmanlı dövlətlərinə yenidən köç etməyə çalışması, Rusiya hakimiyyətinin rəsmi nümayəndəsi P.V.Qan bir xatirəsində imperator I Nikolaydan bu köçü dayandırmağı xahiş etdiyini qeyd edir. Beləliklə, əvvəldən Şimali Azərbaycanda erməni əhalisinin artması mexaniki hərəkət hesabına baş vermişdir. Ermənilərin sayında artımın ermənilərin başqa ərazilərdən köçürülməsi sayəsində həmişə üstünlük təşkil etmişdir (4, s.212).

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsindən sonrakı illərdə 100 mindən çox erməni Osmanlı İmperiyasından Rusiya tərəfindən zəbt olunmuş Azərbaycan ərazisinə köçdü. "O vaxtdan Ermənilərin müsəlman dövlətlərindən Cənubi Qafqaza, həmçinin Azərbaycana tədricən köçürülməsi fasiləsiz, sonra çətinliklə olsa da davam etdi, son bir neçə ildə, geniş, sürətli bir axınla nəzərə çarpan bir damlama ilə Osmanlı və ya Qacarla hər müharibə bizə on minlərlə erməni verdi" (5, s.21).

Dərbəndin işğalının 100-cü ildönümü münasibətilə hazırlanmış "Dərbənd şəhərinin tarixi" kitabı (1906) şəhərdə yaşayan əhalinin etnik mənsubiyyəti, bu şəhərdə yerləşmə tarixi və xarakter xüsusiyyətləri barədə maraqlı məlumat verir. Ermənilər sonrakı illərdə də Dərbəndə gəlirdilər, məsələn 1871-ci ildə Qacar dövlətindən Dərbəndə çoxu usta olan 16 nəfər erməni köçdü". Çar hökuməti Dərbənd şəhərinin strateji mövqeyini nəzərə alaraq burada daha çox xristian-slavyan milli-dini elementini yerləşdirməyə çalışmış və proses Qafqaz müharibəsi başa çatdıqdan sonra daha da intensivləşmişdir(16).

1895-ci ilə olan məlumata görə Dərbənd vilayətində əksəriyyəti şəhərlərdə yaşayan və ticarətlə məşğul olan 1.000 nəfər erməni yaşayırdı. Dərbənd şəhərinin yəhudi əhalisi burada 1797-ci ildə məskunlaşmışdı. Həmin il Qazıqumux hakimi Surxay xan düşməni Şıxəli xanın Dərbənddəki torpaqlarına yürüş etdi, Dərbəndə girə bilməsə də, ondan 7 km cənubda yerləşən, dağ yəhudilərinin yaşadığı Abbasoba kəndini dağıtdı, 200-dən çox adamı öldürdü, bir çoxunu əsir götürdü. Şıxəli xan sağ qalan 150 nəfəri Dərbənd şəhərində məskunlaşdırdı. Yeni sakinlər şəhərin o vaxta qədər adam yaşamayan aşağı hissəsində, Dübarı adlı ərazisində yerləşdirildi. Rəvayətə görə, yəhudilər Abbasabad kəndindən torpaq gətirib ev tikəcəkləri yerə səpdilər və sonra ev tikdilər. Yaranan yeni məhəllə Cuhud (və ya Yəhudi) məhəlləsi adlandırıldı. 1806-cı ildə Dərbənddə kişi cinsindən 100 nəfər yəhudi yaşayırdı, 1897-ci ildə keçirilmiş I Ümumrusiya siyahıyaalmasının nəticələrinə görə onların sayı 1.117 nəfərə çatmışdı. Y.Ko-

zubski Dərbənddə yaşayan yəhudilər haqqında da geniş və maraqlı məlumat verir, bildirir ki, orada yaşayanlar dağ yəhudiləridir və Avropa yəhudiləri burada son vaxtlar, xüsusilə balıqçılıq sənayesinin inkişafından sonra görünməyə başlayıblar. Dağ yəhudilərinə İmperatorun 25 avqust 1850-ci il tarixli fərmanı ilə ildə 2 dəfə başqa tacirlər kimi Həştərxana gedib ticarət etmələrinə icazə verilsə də, onların da başqa yəhudilər kimi pasport alıb imperiyanın hər yerində sərbəst yaşamaq haqqında imperatora 1887-ci ildə etdikləri müraciətləri cavabsız qaldı (3, s.18).

1874-cü ildə S.Mesxi "Droeba" qəzetində yazırdı: "Bu gün Tbilisinin ticarət həyatında erməni tacirləri aparıcı rol oynayırlar; Daşınmaz əmlakın böyük bir hissəsinə sahibdirlər. Əgər hər hansı bir yerdə bir-iki İmerel və ya Maqrelliyə rast gəlsəniz, o da məmurlar və ümumiyyətlə kiçik tacirlər və sahiblər arasında... Şəhərin 72 deputatından yalnız üç-dörd nəfəri gürcüdür... Bir-iki rus və bir alman, qalanları hamısı ermənidir". Erməni tarixçilərinin hesablamalarına görə, Tiflis ticarət və sənaye müəssisələrinin 60%-dən çoxu erməni kapitalistlərinə məxsus idi. Ən azı bir fakt ondan ibarətdir ki, hökumətin erməni burjuaziyasına dəstəyi əvvəldən elə bir miqyas aldı ki, iqtisadi həyatın cilovu tezliklə erməni tacirlərinin və rus kapitalının əlində oldu (2, s.124).

Çarizmin Cənubi Qafqaz məkanında istər Azərbaycanda istərsə də Gürcüstanda apardığı siyasətin məqsədi etnik bölünmə yaratmaq idi. Çarizmin hakimiyyəti zamanı Cənubi Qafqazın, həm Azərbaycanın həm də Gürcüstanın demoqrafik quruluşu xüsusi ilə dəyişdi. N.İ.Şavrov 1911-ci ildə yazırdı: "Hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu diyarın yerli əhalisinə məxsus deyil və bizim tərəfimizdən köçürülmüşdür"(17).

XIX əsrdə bütövlükdə Zaqafqaziyanın idarə olunmasının təşkili üsullarının axtarışına başlanıldı. Hökumət komissiyalarının və məmurların bu istiqamətdəki fəaliyyəti 1840-cı ildə "Zaqafqaziya vilayətini idarə etmək institutu"nun qəbul edilməsi ilə yekunlaşdı (14, s.111).

Nəticədə Cənubi Qafqaz XIX əsrdə Rusiya imperiyasının tərkibində yeni hüquqi status qazandı. Cənubi Qafqaz Rusiyanın ayrılmaz hissəsi kimi formalaşmağa başladı. Bunun üçün 1840-cı ildə aparılan idarəetmə islahatı tələb olunurdu. Onun məqsədi Rusiya imperiyasının bütün quberniyalarına xas olan vahid icra hakimiyyəti sistemini yaratmaq idi. XIX-XX əsrlərin qovşağında ermənilərin Gürcüstan ərazisində məskən salması maksimum həddə çatdı. Beş il ərzində (1897-1902) Gürcüstana 55 minə yaxın erməni gəlmişdi ki, onların da əksəriyyəti Tbilisi, Batumi, Qori, Suxumi və Abxaziya kəndlərində məskunlaşmışdır. Təkcə Tiflisdə 1897-1910-cu illərdə ermənilərin sayı 46,7 min nəfərdən 124,9 min nəfərə yüksəldi ki, bunun da 68 mini əsasən Osmanlıdan yeni gələnlər idi. Çarizmin demoqrafik siyasətinin aqressiv mahiyyəti ermənilərin sərhədyanı rayonlarda, məsələn, Samsxe-Cavaxetiyada məskunlaşdırılmasının gürcü əhalisinin təqib edilməsinin müşayiət olunmasında özünü göstərirdi. L.Zaqurskinin fikrincə, "ölkə əvvəldən ermənilərin yaşadığı kimi görünürdü, halbuki 1828-ci ilə qədər 90%-i gürcülər idi" (17).

Şimali Qafqazda Polşa əhalisinin ən çoxlu kateqoriyası sürgün edilmiş polyaklar - 1830-1860-cı illərdə Polşada milli üsyanların iştirakçıları idi. 1830-1831-ci illərdə Polşa üsyanı yatırıldıqdan sonra çar hökuməti tərəfindən elan edilmiş amnistiyaya baxmayaraq, yüzlərlə məhkum Sibirə sürgün edildi, əsgər kimi alındı və Rusiyanın ucqar quberniyalarına, o cümlədən Qafqaza köçürüldü (9, s.65). 1830-cu illərdə sürgün edilmiş polyakların Qafqaza kütləvi axını başladı. Eyni şey 1863-1864-cü illər üsyanının məğlubiyyətindən sonra da baş verdi.

Nəticə. Beləliklə, XVIII əsrin sonundan 1860-cı illərin ortalarına qədər Qafqazda polyak etnik icması əsasən sürgünlərdən (Polşa üsyanlarının iştirakçılarından) və bölgəyə göndərilmiş polyak əsilli hərbi qulluqçulardan formalaşmışdır. Əfv elan edildikdən sonra sürgün edilənlərin bir hissəsi öz vətənlərinə qayıtsa da, hərbi xidməti başa vurduqdan və ya sürgünə getdikdən sonra bir çox polyak burada əbədi olaraq qaldı.

Polşa hərbçiləri və sürgünləri bütün Qafqazda yerləşdirilmişdi. Xüsusən də Azərbaycan ərazisində Zaqatala və Qusar rayonlarında xeyli sayda polyak xidmət edirdi. Çoxlu Polşa hərbçiləri Gürcüstan və Şimali Qafqazdakı qarnizonlarda yerləşdirilmişdi. 1830-cu illərin əvvəllərində Vladiqafqazda polyakların böyük bir qrupu - Qafqaza sürgünə göndərilmiş Çerniqov piyada alayının və Litva batalyonunun zabitləri xidmət edirdi. Maykopun ilk qarnizonunun əsasını təşkil edən 76-cı Kuban piyada alayında bir çox polyak xidmət edirdi. Onların nəsilləri 20-ci əsrin əvvəllərində Maykopda kilsə

tikdirdilər (10, s.66). Bəzi tədqiqatçılar hesab edirlər ki, ümumilikdə 1840-cı ildə Qafqaz Korpusunda 25-30 min polyak xidmət edirdi.

Ölkənin müxtəlif yerlərində şəhər əhalisinin artımı qeyri-bərabər idi: Baltikyanı əyalətlərdə bu, 1863-1897-ci illər arasında 192,6% olmuşdur. Paytaxtlarda 141,5%, şimal Arxangelsk, Vologda, Olonets əyalətlərində isə cəmi 30,6%, Novorossiysk, Aşağı Volqa və Şərq vilayətlərinin əhalisi şəhərlərdə 132,7%, kənd yerlərində isə 87,2% əhali artmışdır (13, s.45).

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı, Elm‖, 2007, 504 s.
2. Dərbənd şəhərinin kameral təsviri 1831-ci il. Bakı, "Elm və təhsil", 2020, 328 s.
3. Əşrəfqızı Arzu. Car-Bələkən camaatlığı (XVII əsrin sonu – XIX əsrin 30-cu illəri). Bakı, 2009, 256 s.
4. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2010, 618 s.
5. Sadıqov H. Rusiya-Türkiyə münasibələrində Cənubi Qafqas problemi (1787-1829 –cu illər). Bakı, Elm, 1991.
6. ÇEÇEN, A., Türk Devletleri, İstanbul: Togan Yayıncılık, 2014.
7. GÖKÇE, C., Kafkasya ve Osmanlı İmparatorluöunun Kafkasya siyaseti, İstanbul: Şamil Egitim ve Kültür Vakfı, 1979.
8. HASAN, O., Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811) // Vakanüvis, 2 (2017): 379-392.
9. Анатолия и Южный Кавказ в 1724-1920-е гг.: в поисках исторической истины. Москва, "Инсан", 2014, 258 с.
10. История переписей населения в России, Челябинск, 2009, 66 с.
11. История войн России / авт.-сост. А. А. Спек-тор, Т.Л.Шереметьева. Минск, 2007, 118 с.
12. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, Элм, 1999, 298 с.
13. Хаджар Вердиева, Рауф Гусейн-заде. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Эссэ. Издательство «Elm», Баку, 2003, стр.168.
14. Мустафаев Дж. М. Северные ханства Азербайджана и Россия (конец XVIII —начало XIX вв.). Баку, Элм, 1989, 128 с.
15. Дегоев В.В. Большая игра на Южном Кавказе: история и современность. М., 2001, 448 с.
16. Cəfərov T. Gürcüstan ərazisinə ermənilərin ktləvi şəkildə köçürülməsi / 1905.az, 23.01.2017. - https://1905.az/gurcustan-%C9%99razisin%C9%99-erm%C9%99nil%C9%99rin-kutl%C9%99vi-s%C9%99kild%C9%99-kocurulm%C9%99si/ [21.10.2024].
17. Quram Maisuradze. Gürcüstan- Ermənistan münasibətlərinin tarixşünaslığından. II Fəsil. XIX əsr erməni tarixşünaslığı çarizmin anti-gürcü ideloji siyasətinin xidmətində (gürcü dilində). / İberiana: İberiya dünən, bu gün, sabah. - https://iberiana.wordpress.com/armenia-georgia/maisuradze-saq-som-2/ [21.10.2024].

СЕВИЛЬ БАХРАМОВА
Азербайджанский Государственный Педагогический Университет
Старший преподаватель историко-географического факультета,
Кандидат исторических наук

РАЗМЕЩЕНИЕ АРМЯН, ЕРЕТИКОВ И СЕКРЕТАРЕЙ НА ЮЖНОМ КАВКАЗЕ В ПОЛИТИКЕ ЗАМЕНЫ ЦАРСКОЙ РОССИИ

Кавказ отличается разнообразной этнической картой и обилием множества различных культур с богатым историческим прошлым. Различные этнические культуры взаимодействовали здесь на протяжении веков и сформировали особый культурный феномен Кавказа. Кавказ

на протяжении веков привлекал внимание европейцев своими богатыми природными ресурсами, историческим и культурным наследием, этнографическим разнообразием. В регионе созданы очень благоприятные условия для социально-экономического развития, сохранения этнокультурной самобытности, этнокультурных ценностей и этнографических особенностей, здесь на протяжении XIX и начала XX веков формировались европейские этнические общности. Более отчетливо это начало проявляться в начале XX века, в связи с переселенческой политикой русского царизма и этнодемографическими изменениями на Кавказе. Завоевание Кавказа Российской империей инициировало новые этносоциальные процессы и изменения в этнодемографической структуре региона.

В XIX и начале XX веков на Кавказе происходили миграционные процессы либо за пределами Российской империи, либо из ее отдаленных и внутренних в то время губерний. Миграционные процессы на Кавказе в XIX веке носили целенаправленный характер в рамках царской переселенческой политики и носили не только добровольный, но и вынужденный характер. В статье отражена политика России по переселению населения на Южный Кавказ, проанализированы различные источники.

Ключевые слова: Южный Кавказ, еретики и сектанты, насильственное переселение, колониальная политика, этнокультурные ценности, этнографические особенности, этнические общности, массовая миграция населения.

SEVIL BAHRAMOVA
Azerbaijan State Pedagogical University
Head teacher of the Faculty of History and Geography,
PhD in History

PLACEMENT OF ARMENIANS, HERETICS AND SECRETARYS IN THE SOUTH CAUCASUS IN THE REPLACEMENT POLICY OF CZARIAN RUSSIA

The Caucasus is distinguished by its diverse ethnic map and the abundance of many different cultures with a rich historical past. Different ethnic cultures have interacted here for centuries and formed a special cultural phenomenon of the Caucasus. For centuries, the Caucasus has attracted the attention of Europeans with its rich natural resources, historical and cultural heritage, and ethnographic diversity. Very favorable conditions for socio-economic development, preservation of ethno-cultural uniqueness, ethno-cultural values and ethnographic characteristics have been created in the region, European ethnic communities have been formed here throughout the 19th and early 20th centuries. This began to manifest itself more clearly at the beginning of the 20th century, due to the resettlement policy of Russian tsarism and ethno-demographic changes in the Caucasus. The conquest of the Caucasus by the Russian Empire initiated new ethno-social processes and changes in the ethno-demographic structure of the region.

In the 19th and early 20th centuries, migration processes took place in the Caucasus, either outside the borders of the Russian Empire or from its remote and internal governorates at that time. Migration processes in the Caucasus in the 19th century were purposeful within the framework of the tsarist resettlement policy and were not only voluntary but also forced. The article reflects Russia's policy of population transfer to the South Caucasus, and various sources are analyzed.

Keywords: South Caucasus, heretics and sectarians, violent relocation, colonial policy, ethno-cultural values, ethnographic features, ethnic communities, mass migration of the population.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. Qabil Əliyev.